Azərbaycan Respublikası Prezidentinin
2025-ci il 29 dekabr tarixli
Sərəncamı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 – 2028-ci illər üçün**

# MİLLİ FƏALİYYƏT PLANI

## 1. Qısa xülasə

Dayanıqlı inkişafın hərəkətverici qüvvəsi kimi qadınların və kişilərin ölkənin sosial-iqtisadi inkişafına bərabər şəkildə töhfə vermək imkanlarının genişləndirilməsi onların hüquq və azadlıqlarının reallaşması üçün əlverişli şərait yaradılmasını şərtləndirir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan qısa müddət sonra ölkədə gender bərabərliyinin təmin olunması istiqamətində əsaslı addımlar atılmış, normativ hüquqi baza formalaşdırılmış və institusional mexanizmlər yaradılmışdır. Gender amilinin ümumi siyasətə daxil edilməsi üzrə səylər qadınların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində təmsil olunmalarına imkan vermişdir. Ölkədə son illərdə həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı qadınların iqtisadi imkanlarının genişlənməsinə təkan vermiş və onlar arasında işsizlik səviyyəsinin azaldılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasında gender bərabərliyinin təmini sahəsində həyata keçirilən tədbirlərin davamı kimi yeni "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra – Milli Fəaliyyət Planı) hazırlanmışdır.

Milli Fəaliyyət Planında qadınların ictimai fəallığının artırılması, təhsil, məşğulluq, iqlim dəyişiklikləri ilə mübarizə və media sahələrində gender aspektlərinin nəzərə alınması, bu məqsədlə normativ hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi və gender bərabərliyi mədəniyyətinin təbliğinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## 2. Qlobal trendlər

Qadınlara və kişilərə bərabər imkanların yaradılması üzrə əsas prinsip və istiqamətləri özündə ehtiva edən "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Birləşmiş Millətlər Təşkilatının (BMT) Konvensiyası, IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Bəyannaməsi və Fəaliyyət Platforması çərçivəsində beynəlxalq əməkdaşlığın, təcrübə mübadiləsinin və birgə fəaliyyətin nəticəsi olaraq, dünya ölkələrində ictimai-siyasi sahələrdə qadınların kişilərlə bərabər iştirakında gender fərqlərinin azalması müşahidə olunur.

Dünya İqtisadi Forumu tərəfindən hər il nəşr olunan "Qlobal Gender Fərqi Hesabatı"na görə, 2023-cü ildə 146 ölkə üzrə qlobal gender fərqi 2022-ci illə müqayisədə 0,3 faiz yaxşılaşaraq 68,1 faizdən 68,4 faizə qalxmışdır. 2023-cü ildə 146 ölkə üzrə gender fərqi sağlamlıq sahəsində 96 faiz, təhsil sahəsində 95,2 faiz, iqtisadi iştirakçılıq və imkanlar sahəsində 60,1 faiz, siyasi iştirakçılıqda isə 22,1 faiz olmuşdur.

Davos İqtisadi Forumunun məlumatına əsasən, dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qadınlardır. Azərbaycanda bu göstərici 40 faiz təşkil edir.

Lakin müsbət dəyişikliklərlə yanaşı, ailədə və ictimai həyatda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə səbəb olan bir sıra amillər, xüsusilə mənfi stereotiplər, gender əsaslı zorakılıq,

erkən evlilik halları, təhsil, əmək, reproduktiv sağlamlıq kimi hüquqların reallaşdırılması ilə bağlı problemlər hələ də əksər dünya ölkələrində ciddi problem olaraq qalmaqdadır.

BMT-nin 2015-ci ildə qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi"ndə gender bərabərliyinə nail olunması, bütün qadınların hüquq və imkanlarının genişləndirilməsi dayanıqlı inkişaf məqsədlərindən biri kimi müəyyən edilmişdir.

Hazırkı qlobal çağırışlar fonunda gender bərabərliyi üzrə əsas trendlər aşağıdakılardır:

1. gender əsaslı zorakılığın bütün formalarının aradan qaldırılması sahəsində tədbirlərin sürətləndirilməsi;

2. qadınlar üçün iqtisadi imkanların genişləndirilməsi və yeni iqtisadi imkanlar yaradılması;

3. qadınların dövlətin idarə olunmasında və qərarların qəbulu proseslərində iştirakının təmin edilməsi və onların rəhbər vəzifələrə cəlb edilməsi.

Qlobal çağırışları özündə əks etdirməklə gender amilinin dövlət siyasətinin bütün istiqamətlərində nəzərə alınması, dayanıqlı inkişaf naminə qadınların kişilərlə bərabər hüquq və azadlıqlarının həyata keçirilməsinə real imkanlar yaradılması və buna əngəl törədən tendensiyaların aradan qaldırılması Azərbaycanda gender bərabərliyinin təmin edilməsində əsas hədəflər sırasındadır.

## 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikası əhalisinin ümumi sayının 50,2 faizini qadınlar, 49,8 faizini kişilər təşkil edir. Ötən illərlə müqayisədə hər 1000 kişiyə düşən qadınların sayında ciddi azalma müşahidə olunur. Belə ki, 2000-ci ildə bu göstərici 1046 nəfər idisə, 2024-cü ildə 1009 nəfər olmuşdur.

2025-ci il yanvarın 1-nə ümumi işçi qüvvəsinin sayında qadınların payı 48,4 faiz, kişilərin payı 51,6 faiz, məşğul olanların ümumi sayında qadınların payı 48,0 faiz, kişilərin payı 52,0 faiz olmuşdur. Məşğul qadınların 17,3 faizi, kişilərin isə 17,0 faizi ali təhsillidir. İşsizlərin ümumi sayının 55,6 faizini qadınlar təşkil etmişdir. Ölkə üzrə qadınlar arasında işsizlik səviyyəsi 6,1 faiz, kişilər arasında 4,6 faizdir.

2024-cü il üzrə qadınların orta aylıq nominal əməkhaqqı 791,1 manat, kişilər arasında bu göstərici 1159,9 manat təşkil etmişdir. 2015-ci ildə qadınların orta aylıq nominal əməkhaqqı kişilərin orta aylıq nominal əməkhaqqının 53,9 faizini təşkil etdiyi halda, 2024-cü ildə bu nisbət 68,2 faiz olmuşdur.

2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu dövlət gender siyasətinin formalaşdırılmasına, ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunun artırılmasına hüquqi və praktik zəmin yaratmışdır.

Ötən dövrdə hər iki cinsin bərabər təmsilçiliyini və iştirakını nəzərdə tutan inklüziv cəmiyyətin formalaşdırılması, gender mədəniyyətinin təşviqi, ayrı-ayrı sahələrdə gender fərqlərinin aradan qaldırılması üçün ciddi addımlar atılmışdır.

Statistik göstəricilərə əsasən, qadınların seçkili vəzifələrdə təmsilçiliyində irəliləyişlər olmuşdur. Belə ki, qanunvericilik orqanında 2005-ci illə müqayisədə 2024-cü ildə qadınların təmsilçiliyi artaraq, 11,2 faizdən 20,8 faizə çatmışdır. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi 2004-cü ildəki 4 faizdən 2025-ci ildə 39,34 faizə yüksəlmiş, dövlət qulluqçuları arasında qadınların payı son dörd ildə 27,5 faizdən 29,7 faizə çatmış, həmçinin hakimlər, hüquq mühafizə orqanlarının əməkdaşları və vəkillər arasında qadınların sayı artmışdır.

Azərbaycan Respublikasının Statistik vahidlərin Dövlət registrində qeydiyyatda olan fərdi sahibkarların ümumi sayında qadın sahibkarların xüsusi çəkisi son dörd ildə ilbəil artaraq 2025-ci il yanvarın 1-nə 23 faizə çatmış, uçota alınmış vergi ödəyiciləri, bank əmanətçiləri, daşınmaz əmlak sahibləri arasında qadınların sayı artmışdır.

Ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulması, əmək bazarının tələblərinə uyğun olaraq qadınların məşğulluq imkanlarının genişləndirilməsi və onların daha yüksək əməkhaqqı ödənilən sahələrdə çalışmasının təmini məqsədilə əmək qanunvericiliyində dəyişikliklər edilərək qadın əməyinin tətbiqi qadağan olunan peşə (vəzifə) və iş yerlərinin sayı azaldılmış, eyni zamanda qadağa yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara şamil edilmişdir.

Azərbaycanda gender bərabərliyinin təmin edilməsinə mənfi təsir göstərən amillərin (adət-ənənələr, stereotiplər və s.) və həmin amillərdən qaynaqlanan neqativ halların (uşaq doğulanadək cins seçimi (selektiv abortlar), gender əsaslı zorakılıq, erkən evlilik, təhsildən yayınma, iqtisadi asılılıq) aradan qaldırılması ilə bağlı fəaliyyətin və normativ hüquqi aktların təkmilləşdirilməsi davam etdirilmişdir.

Görülən işlərlə yanaşı, eyni zamanda ölkədə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması məqsədilə gender bərabərliyinin təmin olunması ilə bağlı növbəti mərhələdə də normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsinə, qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması üzrə tədbirlərin gücləndirilməsinə, cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin formalaşdırılmasına, müvafiq sahədə təhlil, monitorinq və tədqiqatlar aparılmasına ehtiyac vardır.

## 4. Hədəf göstəriciləri

4.1. Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakılara nail olunması gözlənilir:

4.1.1. beynəlxalq təcrübədən yararlanmaqla gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi;

4.1.2. gender bərabərliyinə dair dövlət siyasətinin həyata keçirilməsi üzrə qurumlararası əlaqələndirmə mexanizminin yaradılması;

4.1.3. gender bərabərliyini təbliğ və təşviq edən vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə dəstək göstərilməsi;

4.1.4. qadınların ictimai fəallığının artırılmasına dəstək göstərilməsi;

4.1.5. əmək bazarında gender fərqlərinin aradan qaldırılması məqsədilə qadınların rəqabət qabiliyyətinin artırılması;

4.1.6. işğaldan azad edilmiş ərazilərdə məskunlaşan qadınların sosial-iqtisadi ehtiyaclarına dair tədqiqat aparılması;

4.1.7. təhsil müəssisələrində gender bərabərliyinin tədrisi;

4.1.8. qadınların rəqəmsal savadlılığının artırılması;

4.1.9. sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji, sosial və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi;

4.1.10. qadınların iqlim dəyişiklikləri ilə mübarizə üzrə fəaliyyətə cəlb olunması;

4.1.11. gender bərabərliyi mədəniyyətinin təbliğində və cinsi mənsubiyyətə görə ayrı-seçkiliklə mübarizədə medianın rolunun artırılması;

4.1.12. gender bərabərliyinin təmin olunması ilə bağlı vəziyyətin təhlili, monitorinqi və qiymətləndirilməsi.

## 5. Milli Fəaliyyət Planının məqsədləri

5.1. Milli Fəaliyyət Planının məqsədləri aşağıdakılardır:

5.1.1. gender bərabərliyinin təmin edilməsi üzrə hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi;

5.1.2. qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların dəstəklənməsi;

5.1.3. cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsi;

5.1.4. cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin təbliği və əhalinin məlumatlılıq səviyyəsinin artırılması.

## 6. Prioritet istiqamətlər

6.1. Milli Fəaliyyət Planı çərçivəsində Azərbaycanda gender bərabərliyi sahəsində müvafiq tədbirlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

6.1.1. gender bərabərliyinin təmin olunması sahəsində hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi:

**6.1.1.1. əsaslandırma**: müasir dövrün çağırışları gender bərabərliyinə dair ölkə qanunvericiliyini təkmilləşdirməklə daha işlək mexanizmlərin müəyyən olunmasını zəruri edir. Gender bərabərliyinin dövlət siyasətinin ayrı-ayrı istiqamətlərinə daxil edilməsi prosesinin gücləndirilməsi üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması və cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarına gətirib çıxaran amillərin aradan qaldırılması məqsədilə hüquqi islahatlar aparılmalıdır. Həmçinin, gender bərabərliyi hədəflərinə çatmaqda dövlət büdcəsinin daha təsirli olması üçün genderə həssas büdcə təcrübəsinin formalaşdırılmasına önəm verilməlidir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.2. dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət, ictimai əsaslarla fəaliyyət göstərən mərkəzi və yerli səviyyəli Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının yaradılması;

6.1.1.2.3. gender məsələləri üzrə ictimai əsaslarla fəaliyyət göstərən məsul şəxslərin işinin təkmilləşdirilməsi üçün tədbirlər görülməsi;

6.1.1.2.4. dövlət büdcəsinin genderə həssaslığının qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. gender bərabərliyi sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi akt layihələri hazırlanacaq və müvafiq qaydada razılaşdırılmaqla, baxılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim olunacaqdır;

6.1.1.3.2. Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qrupları fəaliyyətə başlayacaq və gender bərabərliyinin təmini sahəsində qurumlararası əlaqələndirmə həyata keçiriləcəkdir;

6.1.1.3.3. gender məsələləri üzrə məsul şəxslərin siyahısı müəyyən ediləcək, onlar üçün təlim və seminarlar keçiriləcək, vəzifə təlimatları təsdiq ediləcəkdir;

6.1.1.3.4. beynəlxalq təcrübəyə əsaslanmaqla, dövlət büdcəsinin genderə həssaslığının qiymətləndirilməsi ilə bağlı təkliflər hazırlanacaqdır;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.2. qadınların ictimai fəallığının artırılması:

**6.1.2.1. əsaslandırma:** dövlət sektorunda və özəl sektorda qərar qəbulu proseslərində qadınların iştirakının artırılması və rəhbər vəzifələrdə kişilərlə bərabər şəkildə təmsilçiliyi onların ictimai fəallığının yüksəldilməsi tədbirlərini zəruri edir;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. dövlət sektorunda və özəl sektorda qərar qəbulu proseslərində qadınların kişilərlə bərabər iştirakını təşviq etmək üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi;

6.1.2.2.2. gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılmasına dəstək göstərilməsi;

6.1.2.2.3. qadınların sosial-ictimai fəallığını artırmaq məqsədilə qeyri-hökumət təşkilatlarının yaradılmasının təşviqi;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. dövlət sektorunda və özəl sektorda qərar qəbulu proseslərində qadınların iştirakı artırılacaqdır;

6.1.2.3.2. gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılması ilə bağlı aparılan təhlillərin nəticəsi olaraq təkliflər hazırlanacaq və tədbirlər görüləcəkdir;

6.1.2.3.3. gender bərabərliyinin təşviqi sahəsində fəaliyyət göstərən və o cümlədən qadınların rəhbərlik etdiyi yeni qeyri-hökumət təşkilatlarının yaradılması istiqamətində tədbirlər görüləcəkdir;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. özəl sektorda fəaliyyət göstərən qadınların ictimai fəallığının artırılması istiqamətində təşviqat tədbirlərinin həyata keçirilməsi işəgötürənlərlə razılaşdırılmalı olduğundan əlavə vaxt tələb edə bilər. Bununla əlaqədar işəgötürənlərlə müzakirələr aparılması nəzərdə tutulur;

6.1.3. qadınların məşğulluğunun dəstəklənməsi:

**6.1.3.1. əsaslandırma:** ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas hədəflərindən biri dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması məqsədilə qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbətinin artırılmasıdır. Bu baxımdan qadınların məşğulluğunun dəstəklənməsi, iqtisadi təşəbbüskarlığının, kiçik və orta sahibkarlıqda təmsilçiliyinin genişləndirilməsi, onların iqtisadi asılılığının azaldılması, ailələrin rifahının davamlı təmin olunması və əmək bazarında gender fərqlərinin aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. qadınların qeyri-formal məşğulluğunun qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi;

6.1.3.2.2. əmək bazarında ən çox işçi tələb olunan peşələr üzrə işaxtaran və işsiz qadınların rəqabət qabiliyyətinin artırılmasına yönələn peşə hazırlığının təşkili;

6.1.3.2.3. qadınlar üçün mikroiqtisadi və idarəetmə təliminin təşkili və onların kiçik bizneslər üçün maliyyə imkanlarına çıxışının təmin edilməsi;

6.1.3.2.4. kənd turizmi ilə, o cümlədən aqroturizmlə məşğul olan və bu sahəyə maraq göstərən qadınların fəaliyyətinin dəstəklənməsi;

6.1.3.2.5. iş yerlərində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə maarifləndirmə işinin aparılması;

6.1.3.2.6. əlilliyi olan qadınların məşğulluğunun artırılması, onların yeni peşələrə yiyələnməsi və peşə bacarıqlarının inkişaf etdirilməsi üçün kursların təşkili;

6.1.3.2.7. əlilliyi olan qadınların əl işlərindən ibarət satış-sərgilərin keçirilməsi;

6.1.3.2.8. kənd yerlərində yaşayan qadınların məşğulluğuna dəstək və müvafiq maarifləndirici tədbirlərin həyata keçirilməsi;

6.1.3.2.9. işğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların rəqəmsal bilik və bacarıqlarının artırılması;

6.1.3.2.10. işaxtaran və işsiz qadınların əmək bazarına inteqrasiya olunması üçün aktiv məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. qadınların qeyri-formal məşğulluq səviyyəsinin yüksək olduğu sahələrdə muzdla işləyən qadınların sayı artacaqdır;

6.1.3.3.2. əmək bazarında ən çox işçi tələb olunan peşələr üzrə qadınların bacarıqları və potensialı gücləndiriləcəkdir;

6.1.3.3.3. sahibkarlıqla məşğul olan qadınların sayının artırılması ilə bağlı tədbirlər görüləcəkdir;

6.1.3.3.4. kənd evlərini turistlərə qonaq evi olaraq təqdim edən 200 nəfər qadına turizm yönümlü təlimlər keçiləcək, aqroturizmlə məşğul olan 100 nəfər qadına avadanlıq və infrastruktur dəstəyi göstəriləcəkdir;

6.1.3.3.5. iş yerlərində cinsi ayrı-seçkiliyin yolverilməzliyi barəsində ictimaiyyətin, iş

yerlərində cinsi ayrı-seçkiliyin qarşısının alınmasının vacibliyi və metodları barədə işəgötürənlərin məlumatlılığı artırılacaqdır;

6.1.3.3.6. peşə bacarıqlarının inkişafı üçün qadınlar peşə hazırlığına cəlb ediləcək, əlilliyi olan qadınların məşğulluğu artırılacaqdır;

6.1.3.3.7. əlilliyi olan qadınların əl işləri sənətinin inkişafı üçün kurslar və satış sərgiləri təşkil olunacaqdır;

6.1.3.3.8. kənd yerlərində yaşayan qadınlar üçün maliyyə savadlılığı, özünüməşğulluq mövzusunda kurslar keçirilməklə, onların özünüməşğulluq proqramlarına cəlb edilməsi təmin olunacaq, bu tədbirlərin qadınların məşğulluğunun artırılmasına təsiri təhlil ediləcəkdir;

6.1.3.3.9. işğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanları genişlənəcəkdir;

6.1.3.3.10. regionlarda qadınlar üçün keçirilmiş əmək yarmarkalarının və işlə təmin olunmuş qadınların sayı artacaqdır;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. qadınların məşğulluğunun dəstəklənməsi üzrə tədbirlərin təşkili üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Milli Fəaliyyət Planının 7-ci hissəsində əks olunmuş mənbələr hesabına maliyyələşdirmə aparılması üçün aidiyyəti tədbirlər görülməsi nəzərdə tutulur;

6.1.4. təhsil sahəsində gender bərabərliyinin nəzərə alınması:

**6.1.4.1. əsaslandırma**: gender bərabərliyi məsələlərinin təhsilin məzmununa daxil edilməsi insan hüquq və azadlıqlarına etimadın möhkəmləndirilməsinə və cəmiyyətin dayanıqlı inkişafına xidmət edir. İnsan rifahının və iqtisadi inkişafın əsas faktoru olan təhsil sahəsində gender bərabərliyinin nəzərə alınması hər iki cinsin təhsilə bərabər çıxışı ilə yanaşı, həm də onların az təmsil olunduğu və yüksək əməkhaqqı ödənilən peşə sahələrində sayının artması, o cümlədən cinsi mənsubiyyətə görə ayrı-seçkilliyə şərait yaradan gender stereotiplərinin aradan qaldırılması üçün önəmlidir;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. ümumi təhsil pilləsi üzrə dərslik hazırlığını həyata keçirən müəlliflərin və dərslik qiymətləndirməsini aparan ekspertlərin öz fəaliyyətlərində gender bərabərliyi prinsipinin tətbiqi ilə bağlı bilik və bacarıqlarının artırılması;

6.1.4.2.2. ali təhsilin bakalavriat və magistratura səviyyələrində müvafiq ixtisasların təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı seçmə fənlərin və ya mövzuların daxil edilməsi;

6.1.4.2.3. ümumi təhsil müəssisələrində yuxarı sinif şagirdlərinin, müəllimlərin, valideynlərin iştirakı ilə insan hüquqları və gender bərabərliyi barədə məlumatlılığının artırılması, məişət zorakılığının, təhsildən yayınmanın və erkən evliliyin fəsadları mövzusunda maarifləndirici tədbirlərin həyata keçirilməsi;

6.1.4.2.4. qadınların bədən tərbiyəsi və idmana cəlb olunması istiqamətində tədbirlərin gücləndirilməsi;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. ümumi təhsil pilləsi üzrə dərslik hazırlığını həyata keçirən müəlliflərə və dərslik qiymətləndirməsini aparan ekspertlərə öz fəaliyyətlərində gender bərabərliyi prinsipinin tətbiqi ilə bağlı təlim keçiriləcəkdir.

6.1.4.3.2. təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı seçmə fənlər daxil ediləcək, müvafiq tədris proqramları və dərsliklər hazırlanacaq, müntəzəm olaraq tədrisin monitorinqi və qiymətləndirilməsi aparılacaqdır;

6.1.4.3.3. ümumi təhsil müəssisələrində yuxarı sinif şagirdlərinin, müəllimlərin, valideynlərin insan hüquqları və gender bərabərliyi barədə, məişət zorakılığının, təhsildən yayınmanın və erkən evliliyin fəsadları ilə bağlı məlumatlılığı artırılacaqdır;

6.1.4.3.4. qadınların bədən tərbiyəsi və idmanla məşğul olmaları ilə bağlı təbliğat işləri aparılacaq, bədən tərbiyəsi və idmanla məşğul olan qadınların sayı artacaqdır;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. regionlarda qadınların idman yarışlarına cəlb edilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar əlavə təşviqat tədbirlərinin keçirilməsi nəzərdə tutulur;

6.1.5. sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi;

**6.1.5.1. əsaslandırma:** gender bərabərliyi baxımından inklüziv cəmiyyət yaradılmasında əsas amillərdən biri də sosial cəhətdən həssas qruplardan olan qadınların rifahının yaxşılaşdırılması və cəmiyyətə inteqrasiyasına dəstək göstərilməsidir. Bu qadınların çətin həyat şəraitinə düşməsinin qarşısını almaq məqsədilə əlavə resurslar da cəlb etməklə onların tibbi, psixoloji və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi istiqamətində tədbirlərin gücləndirilməsinə ehtiyac vardır;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. sosial cəhətdən həssas qrupdan olan qadınlar arasında ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxış barədə maarifləndirmə işinin aparılması;

6.1.5.2.2. sosial cəhətdən həssas qruplardan olan qadınların psixoloji yardıma əlçatanlığının təmin edilməsi;

6.1.5.2.3. sosial cəhətdən həssas qruplardan olan qadınlar üçün hüquqi yardıma əlçatanlığın təmin edilməsi;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. qadınlar arasında ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxış barədə məlumatlılıq artacaqdır;

6.1.5.3.2. sosial cəhətdən həssas qruplardan olan qadınların psixoloji yardıma əlçatanlığı təmin ediləcəkdir;

6.1.5.3.3. sosial cəhətdən həssas qruplardan olan qadınlara hüquqi yardım göstərilməsi imkanları genişlənəcəkdir;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. regionlarda sosial cəhətdən həssas qrupdan olan qadınların psixoloji yardıma müraciət edilməsindən çəkinmə halları sözügedən yardımdan istifadədə çətinliklər yarada bilər. Bu da erkən müdaxilə imkanlarını məhdudlaşdırır. Bununla əlaqədar əhali arasında məlumatlılığın artırılması və maarifləndirmə işlərinin aparılması nəzərdə tutulur;

6.1.6. iqlim dəyişiklikləri ilə mübarizə sahəsində gender bərabərliyinin nəzərə alınması:

**6.1.6.1. əsaslandırma:** iqlim dəyişikliklərinin sağlamlıq və təhlükəsizlik baxımından cinslərə fərqli və qeyri-mütənasib təsirləri onunla mübarizədə gender aspektlərinə diqqət yetirilməsini zəruri edir. Qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların bu təsirlərin azaldılmasında və sonrakı adaptasiya proseslərində əhəmiyyətli rolunu nəzərə alaraq, iqlim dəyişiklikləri ilə mübarizə üzrə fəaliyyətlərə onların cəlb edilməsi tələb olunur;

**6.1.6.2.görüləcək tədbirlər:**

6.1.6.2.1. həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri nəticəsində yaranan risklərin aradan qaldırılması istiqamətində tədbirlər görülməsi;

6.1.6.2.2. istilik effekti yaradan qaz tullantılarının azaldılması (su, ərzaq, heyvandarlıq, kənd təsərrüfatı, məişətdə enerjiyə qənaət və s.) və iqlim dəyişmələrinin digər aspektləri üzrə maarifləndirici tədbirlərə qadınların cəlb edilməsi;

6.1.6.2.3. iqlim dəyişikliklərinin ətraf mühitə təsirlərinin azaldılmasında bərpa olunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi sahəsində qadınların ictimai təşəbbüslərinin dəstəklənməsi;

**6.1.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri fəsadlarından yaranan riskləri nəzərə alaraq iqlim dəyişmələri üzrə adaptasiya planı və proqramları hazırlanacaqdır;

6.1.6.3.2. istilik effekti yaradan qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinin digər aspektlərini ehtiva edən fəaliyyətlər çərçivəsində həyata keçirilən maarifləndirici tədbirlərdə qadınların sayı artırılacaqdır;

6.1.6.3.3. iqlim dəyişikliklərinin ətraf mühitə təsirlərinin azaldılmasında bərpa olunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi sahəsində qadın təşəbbüslərinin həyata keçirilməsinə dəstək göstəriləcəkdir;

**6.1.6.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. iqlim dəyişmələri üzrə adaptasiya planının və proqramlarının aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması əlavə vaxt tələb edə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

6.1.7. media sahəsində gender bərabərliyinin təşviqi:

**6.1.7.1. əsaslandırma**: cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin təbliğində və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol açan sosial davranış normalarının dəyişdirilməsində media xüsusi əhəmiyyətə malikdir. Media sahəsində gender aspektlərinin nəzərə alınması üçün media nümayəndələrinin gender məsələlərinə həssaslığının artırılması üzrə fəaliyyətin gücləndirilməsinə zərurət vardır;

**6.1.7.2. görüləcək tədbirlər:**

6.1.7.2.1. media subyektlərində gender bərabərliyinin təşviqi;

6.1.7.2.2. media nümayəndələrinin gender məsələlərinə həssaslığının artırılması və müvafiq sahələrdə uğur qazanmış qadın obrazının təşviqi;

6.1.7.2.3. mediada yayımlanan gender bərabərliyi və gender əsaslı zorakılıq mövzusunda media məhsullarının monitorinqinin aparılması;

**6.1.7.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. media subyektləri arasında gender bərabərliyinin təşviqi üzrə keçirilmiş təlimlərin media subyektlərində gender bərabərliyinin təmin olunmasına təsiri öyrəniləcəkdir;

6.1.7.3.2. mediada gender bərabərliyi prinsipinə əməl edilməklə yayımlanan media məhsullarının sayı artacaqdır;

6.1.7.3.3. gender bərabərliyi və gender əsaslı zorakılıq mövzusunda media məhsullarının monitorinqi aparılacaq və müvafiq hesabat hazırlanacaqdır;

**6.1.7.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. media sahəsində gender bərabərliyinin nəzərə alınması üzrə tədbirlərin həyata keçirilməsi media subyektlərinin fəallığından asılı olduğundan əlavə vaxt tələb edə bilər. Bununla əlaqədar onlarla müzakirələr aparılması nəzərdə tutulur;

6.1.8. gender bərabərliyinin təmin olunması ilə bağlı vəziyyətin təhlili və qiymətləndirilməsi:

**6.1.8.1. əsaslandırma**: gender bərabərliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin və onların qarşıya qoyulan məqsədlərə uyğunluğunun yoxlanılması üçün təhlili və qiymətləndirmələr aparılması vacibdir. Bu tədbirlər həmçinin cəmiyyətdə gender münasibətlərində baş vermiş dəyişikliklərin öyrənilməsinə və cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarının aradan qaldırılması üzrə gələcək fəaliyyətin müəyyən edilməsinə imkan verir;

**6.1.8.2. görüləcək tədbirlər:**

6.1.8.2.1. ölkədə gender əsaslı zorakılığa dair sorğu aparılması;

6.1.8.2.2. işğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların sosial-iqtisadi ehtiyaclarına dair keyfiyyət və kəmiyyət əsaslı tədqiqat aparılması;

6.1.8.2.3. özəl sektorda gender bərabərliyinin təmin edilməsi məqsədilə özəl müəssisələrin özlərinin daxili siyasət və prosedurlarının gender auditini aparmağa və bu sahədə fəaliyyətlərini gücləndirməyə təşviq edilməsi;

6.1.8.2.4. cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə mövcud mexanizmlərin səmərəliliyinin təhlili və təkliflər hazırlanması;

6.1.8.2.5. turizm sahəsində gender bərabərliyinə dair qiymətləndirmə aparılması;

**6.1.8.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.3.1. ölkədə gender əsaslı zorakılığa dair sorğu aparılacaq, yekun hesabat hazırlanacaqdır;

6.1.8.3.2. işğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların sosial-iqtisadi ehtiyaclarına dair tədqiqat aparılacaq, təkliflər hazırlanacaqdır;

6.1.8.3.3. özəl müəssisələrdə daxili siyasət və prosedurlar üzrə aparılmış gender auditlərinin nəticələrinə dair tövsiyələr hazırlanaraq aidiyyəti qaydada təqdim olunacaqdır;

6.1.8.3.4. cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə mövcud mexanizmlərin səmərəliliyi təhlil ediləcək və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunacaqdır;

6.1.8.3.5. turizm sahəsində gender bərabərliyinə dair qiymətləndirmə aparılacaq, qiymətləndirmə hesabatından irəli gələn təkliflər aidiyyəti üzrə təqdim olunacaqdır;

**6.1.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.8.4.1. özəl müəssisələrdə daxili siyasət və prosedurların gender auditinin aparılması həmin müəssisələrlə razılaşdırılmalı olduğundan çətinliklər yarana bilər. Bununla əlaqədar özəl müəssisələrin rəhbərliyi ilə müzakirələrin aparılması nəzərdə tutulur.

## 7. Maliyyələşdirilmə mexanizmləri

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin icrasının təmin edilməsi məqsədilə tələb olunan xərclərin müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

## 8. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə göstəriciləri | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **8.1. Gender bərabərliyinin təmin olunması sahəsində hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | Gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Tövsiyə edilir: İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.2. | Dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət, ictimai əsaslarla fəaliyyət göstərən mərkəzi və yerli səviyyəli Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının yaradılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Daxili İşlər Nazirliyi<br>Səhiyyə Nazirliyi<br>Elm və Təhsil Nazirliyi<br>İqtisadiyyat Nazirliyi<br>Kənd Təsərrüfatı Nazirliyi | 2026–2027 | Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının yaradılması | Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının iş qaydası layihəsinin hazırlanması və təsdiq edilməsi | Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplanının fəaliyyətə başlaması və gender bərabərliyinin təmini sahəsində qurumlararası əlaqələndirmənin həyata keçirilməsi |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | | | Yerli icra hakimiyyəti orqanları<br><br>Tövsiyə edilir:<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman)<br><br>bələdiyyələrin milli assosiasiyaları | | | | |
| 8.1.3. | Gender məsələləri üzrə ictimai əsaslarla fəaliyyət göstərən məsul şəxslərin işinin təkmilləşdirilməsi üçün tədbirlər görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Daxili İşlər Nazirliyi<br><br>Səhiyyə Nazirliyi<br><br>Elm və Təhsil Nazirliyi<br><br>İqtisadiyyat Nazirliyi<br><br>Kənd Təsərrüfatı Nazirliyi<br><br>digər aidiyyəti dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br>Həmkarlar İttifaqları Konfederasiyası<br><br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Gender məsələləri üzrə məsul şəxslərin siyahısının müəyyənləşdirilməsi | Gender məsələləri üzrə məsul şəxslər üçün təlimlər və seminarların keçirilməsi | Gender məsələləri üzrə məsul şəxslər üçün vəzifə təlimatlarının hazırlanması və təsdiq olunması |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.1.4. | Dövlət büdcəsinin genderə həssaslığının qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Maliyyə Nazirliyi | 2026 | Dövlət büdcəsinin genderə həssaslığının qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübənin araşdırılması | Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri üçün beynəlxalq ekspertlərin iştirakı ilə təlimlər keçirilməsi | Dövlət büdcəsinin genderə həssaslığının qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübəyə əsaslanmaqla təkliflər hazırlanması |
| **8.2. Qadınların ictimai fəallığının artırılması** | | | | | | | |
| 8.2.1. | Dövlət sektorunda və özəl sektorda qərar qəbulu proseslərində qadınların kişilərlə bərabər iştirakını təşviq etmək üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Milli Elmlər Akademiyası<br><br>Dövlət İmtahan Mərkəzi | 2026–2028 | Dövlət sektorunda fəaliyyət göstərənlər üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi | Özəl sektorda fəaliyyət göstərənlər üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi | Dövlət sektorunda və özəl sektorda qərar qəbulu proseslərində qadınların iştirakının artırılması |
| 8.2.2. | Gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılmasına dəstək göstərilməsi | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Tövsiyə edilir: Həmkarlar İttifaqları Konfederasiyası<br><br>qeyri-hökumət təşkilatları | 2026–2027 | Gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılması ilə bağlı təhlillər aparılması | Gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılması ilə bağlı təkliflər hazırlanması | Gender bərabərliyinin təbliği və təşviqi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının ictimai iştirakçılığının artırılması |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.2.3 | Qadınların sosial-ictimai fəallığını artırmaq məqsədilə qeyri-hökumət təşkilatlarının yaradılmasının təşviqi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | 2026–2027 | Gender bərabərliyinin təmin olunması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına dair məlumatların toplanılması | Gender bərabərliyinin təmini sahəsində qeyri-hökumət təşkilatlarının yaradılması ilə bağlı təşviqat tədbirlərinin həyata keçirilməsi | Gender bərabərliyinin təşviqi sahəsində fəaliyyət göstərən, o cümlədən qadınların rəhbərlik etdiyi yeni qeyri-hökumət təşkilatlarının yaradılması |
| **8.3. Qadınların məşğulluğunun dəstəklənməsi** | | | | | | | |
| 8.3.1. | Qadınların qeyri-formal məşğulluğunun qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İqtisadiyyat Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2026–2028 | Qadınların qeyri-formal məşğulluq səviyyəsinin yüksək olduğu sahələrin müəyyən olunması üçün anket sorğusunun keçirilməsi və müvafiq təhlillər aparılması | Qadınların qeyri-formal məşğulluqla bağlı maarifləndirilməsi və məlumatlandırılması tədbirlərinin həyata keçirilməsi | Muzdla işləyən qadınların sayının artırılması |
| 8.3.2. | Əmək bazarında ən çox işçi tələb olunan peşələr üzrə işaxtaran və işsiz qadınların rəqabət qabiliyyətinin artırılmasına yönələn peşə hazırlığının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İqtisadiyyat Nazirliyi<br><br>Elm və Təhsil Nazirliyi<br><br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 2026–2028 | Qadınların səmərəli məşğulluğu üçün prioritet sahələrin müəyyən olunması və bunun əsasında peşə hazırlığı kursların təşkili | Peşə hazırlığına cəlb olunan qadınların sayının artırılması istiqamətində tədbirlər görülməsi | Əmək bazarında ən çox işçi tələb olunan peşələr üzrə qadınların bacarıqlarının və potensialının gücləndirilməsi |
| 8.3.3. | Qadınlar üçün mikroiqtisadi və idarəetmə təlimlərinin təşkili və onların kiçik bizneslər üçün maliyyə imkanlarına çıxışının təmin edilməsi | İqtisadiyyat Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Kənd Təsərrüfatı Nazirliyi | 2026–2028 | Özünüməşğulluq proqramına cəlb olunan qadınların sayının artırılması | Qadınlar üçün mikroiqtisadi və idarəetmə təlimlərinin təşkili | Sahibkarlıqla məşğul olan qadınların sayının artırılması |
| 8.3.4. | Kənd turizmi, | Dövlət Turizm Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2026–2027 | Kənd turizmi ilə məşğul olan və bu | Turizm | Kənd evlərini turistlərə qonaq evi |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | o cümlədən aqroturizm ilə məşğul olan və bu sahəyə maraq göstərən qadınların fəaliyyətinin dəstəklənməsi | | İqtisadiyyat Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>yerli icra hakimiyyəti orqanları | | sahəyə maraq göstərən qadınların siyahısının hazırlanması, təlim ehtiyaclarının öyrənilməsi, aqroturizmlə məşğul olan qadınların fəaliyyət göstərdikləri təsərrüfatların ilkin infrastruktur (məişət əşyaları, mətbəx avadanlığı, mebel və digər inventar) ehtiyaclarının öyrənilməsi | yönümlü (qonaqlama, tanıtım, büdcə, etiket qaydaları, standartlar və s.) təlimlərin keçirilməsi, aqroturizmlə məşğul olan qadınların fəaliyyət göstərdikləri təsərrüfatların ilkin infrastruktur (məişət əşyaları, mətbəx avadanlığı, mebel və digər inventar) ehtiyaclarının qarşılanması | olaraq təqdim edən 200 nəfər qadına turizm yönümlü təlimlərin keçilməsi, aqroturizmlə məşğul olan 100 nəfər qadına avadanlıq və infrastruktur dəstəyinin göstərilməsi |
| 8.3.5. | İş yerlərində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə maarifləndirmə işinin aparılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Tövsiyyə edilir: Həmkarlar İttifaqları Konfederasiyası<br><br>Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | 2026–2028 | Mövzu üzrə press-relizlərin hazırlanaraq mediada yayımlanması (İldə 4 press-reliz). Mövzu üzrə maarifləndirmə tədbirlərinin (görüş, seminar və s. tədbirlərin) işəgötürənlərin iştirakı ilə keçirilməsi (ildə 2 tədbir) | Bu tədbir üzrə əsas və digər icraçıların rəsmi sosial media hesablarında məlumat xarakterli poster, infoqrafika və digər aidiyyəti materialların paylaşılması (ildə 4 paylaşım) | İş yerlərində cinsi ayrı-seçkilik barəsində ictimaiyyət arasında məlumatlılığın, eləcə də iş yerlərində cinsi ayrı-seçkiliyin qarşısının alınmasının vacibliyi və metodları barədə işəgötürənlərin məlumatlılığının artırılması |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| 8.3.6. | Əlilliyi olan qadınların məşğulluğunun artırılması, onların yeni peşələrə yiyələnməsi və peşə bacarıqlarının inkişaf etdirilməsi üçün kursların təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Peşə hazırlığına cəlb olunmasını istəyən əlilliyi olan qadınların sayının müəyyən edilməsi | Əlilliyi olan qadınların yeni peşələrə yiyələnməsinə töhfə verən kurslarda iştirakına üstünlük verilməsi | Əlilliyi olan qadınların məşğulluğun artırılması |
| 8.3.7 | Əlilliyi olan qadınların əl işlərindən ibarət satış-sərgilərin keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Əl işi sənətinə marağı olan qadınların müəyyən edilməsi | Əlilliyi olan qadınların əl işləri sənətinin inkişafı üçün təşkil edilən kursların sayının artırılması | Əlilliyi olan qadınların əl işləri üzrə satış-sərgilərin təşkili |
| 8.3.8 | Kənd yerlərində yaşayan qadınların məşğulluğuna dəstək və müvafiq maarifləndirici tədbirlərin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Kənd yerlərində yaşayan qadınlar üçün maliyyə savadlılığı mövzusunda kursların keçirilməsi | Kənd yerlərində yaşayan qadınlar üçün özünüməşğulluq mövzusunda kursların keçirilməsi | Kənd yerlərində yaşayan qadınların özünüməşğulluq proqramına cəlb olunması,bu tədbirlərin qadınların məşğulluğunun artırılmasına təsirinin təhlili |
| 8.3.9. | İşğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların rəqəmsal bilik və bacarıqlarının artırılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Qadınların rəqəmsal bilik və bacarıqlarının artırılması sahəsində ehtiyacların öyrənilməsi və müvafiq təlim proqramlarının hazırlanması | Təlimçilərin müəyyən edilməsi, qadınların təlimlərdə iştiraka cəlb olunması üçün iş aparılması | İşğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi |
| 8.3.10. | İşaxtaran və işsiz qadınların əmək bazarına inteqrasiya olunması üçün aktiv | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Daha çox qadının aktiv məşğulluq tədbirlərində iştirakına üstünlük verilməsi | Dünya Bankı ilə birlikdə aparılan özünüməşğulluq proqramı | Regionlarda qadınlar üçün keçirilmiş əmək yarmarkalarının və işlə təmin olunmuş |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması | | | | | çərçivəsində xidmət və istehsal istiqamətləri üzrə qadınlara üstünlük verilməsi | qadınların sayının artırılması |
| **8.4. Təhsil sahəsində gender bərabərliyinin nəzərə alınması** | | | | | | | |
| 8.4.1. | Ümumi təhsil pilləsi üzrə dərslik hazırlığını həyata keçirən müəlliflərin və dərslik qiymətləndirməsini aparan ekspertlərin öz fəaliyyətlərində gender bərabərliyi prinsipinin tətbiqi ilə bağlı bilik və bacarıqlarının artırılması | Elm və Təhsil Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Dərslik müəllifləri və ekspertlərin gender bərabərliyi prinsiplərinə dair təlim ehtiyaclarının müəyyən edilməsi | Gender bərabərliyi prinsiplərinə əməl olunmasına dair təlim proqramının hazırlanması | Gender bərabərliyi prinsiplərinə əməl olunmasına dair təlim keçirilməsi |
| 8.4.2. | Ali təhsilin bakalavriat və magistratura səviyyələrində müvafiq ixtisasların təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı fənlərin və ya mövzuların daxil edilməsi | Elm və Təhsil Nazirliyi | Tövsiyə edilir:<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Gender bərabərliyi ilə bağlı məsələləri özündə ehtiva edən seçmə fənlərin məzmununun müəyyən olunması | Təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı daxil edilmiş seçmə fənlərə aid tədris proqramlarının və dərsliklərin hazırlanması | Təhsil proqramlarına gender bərabərliyinin tədrisi ilə bağlı seçmə fənlər üzrə aparılan tədrisin müntəzəm olaraq monitorinqi və qiymətləndirməsi |
| 8.4.3. | Ümumi təhsil müəssisələrində yuxarı sinif şagirdlərinin, müəllimlərin və valideynlərin iştirakı ilə insan hüquqları və gender bərabərliyi barədə məlumatlılığının artırılması, məişət zorakılığının, təhsildən yayınmanın və erkən evliliyin fəsadları mövzusunda maarifləndirici tədbirlərin həyata keçirilməsi | Elm və Təhsil Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi<br><br>Tövsiyə edilir:<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Təhsildən yayınma və erkən evlilik hallarının, məişət zorakılığının daha çox baş verdiyi rayon və şəhərlərin müəyyən edilməsi | Ümumi təhsil müəssisələrində yuxarı sinif şagirdləri, müəllimlər və valideynlər ilə görüşlərin keçirilməsi | Ümumi təhsil müəssisələrində yuxarı sinif şagirdlərinin, müəllimlərin və valideynlərin insan hüquqları və gender bərabərliyi barədə, məişət zorakılığının, təhsildən yayınmanın və erkən evliliyin fəsadları barədə |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | məlumatlılığının artırılması |
| 8.4.4. | Qadınların bədən tərbiyəsi və idmana cəlb olunması istiqamətində tədbirlərin gücləndirilməsi | Gənclər və İdman Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Qadınların bədən tərbiyəsi və idmanla məşğul olmaları ilə bağlı təbliğat işlərinin aparılması | Qadınların iştirakı ilə idman yarışlarının keçirilməsi | Bədən tərbiyəsi və idmanla məşğul olan qadınların sayının artması |
| **8.5. Sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi** | | | | | | | |
| 8.5.1. | Sosial cəhətdən həssas qrupdan olan qadınlar arasında ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxış barədə maarifləndirmə işinin aparılması | Səhiyyə Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Gənclər və İdman Nazirliyi<br><br>Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi | 2026 | Sosial cəhətdən həssas qrupdan olan qadınların ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə ehtiyaclarının müəyyən edilməsi | Sosial cəhətdən həssas qrupdan olan qadınların sözügedən tibbi yardım və xidmətlərin göstərildiyi tibb müəssisələri, bu tibbi yardımın və xidmətin növləri, həcmi, göstərilmə qaydası barədə məlumatlılığının artırılması | Bu qrupdan olan qadınlar arasında ilkin tibbi-sanitariya yardımına, o cümlədən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxış barədə məlumatlılığın artırılması |
| 8.5.2. | Sosial cəhətdən həssas qruplardan olan qadınların psixoloji yardıma əlçatanlığının təmin edilməsi | Səhiyyə Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi | 2026 | Dövlət tibb müəssisələrində qadınların psixoloji yardıma ehtiyacının araşdırılması | Sağlamlığına zərər vurmağa meyilli olan qadınların psixoloq tərəfindən nəzarətə götürülməsi və onlarla mütəmadi olaraq söhbətlər aparılması | Sosial cəhətdən həssas qruplardan olan qadınların psixi sağlamlıq xidmətlərinə əlçatanlığnın təmin edilməsi |
| 8.5.3. | Sosial cəhətdən həssas qruplardan olan qadınlar üçün hüquqi yardıma əlçatanlığın təmin edilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Tövsiyə edilir: Vəkillər Kollegiyası | 2026–2028 | Hüquqi yardım göstərəcək hüquqşünas ların və | Hüquqi yardımın təşkil olunması ilə bağlı mediada elanların verilməsi | Sosial cəhətdən həssas qruplardan olan qadınlara hüquqi yardımın göstərilməsi |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | hüquqi yardımın təşkil ediləcəyi yerlərin müəyyən edilməsi | | |
| **8.6. İqlim dəyişiklikləri ilə mübarizə sahəsində gender bərabərliyinin nəzərə alınması** | | | | | | | |
| 8.6.1. | Həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri nəticəsində yaranan risklərin aradan qaldırılması istiqamətində tədbirlər görülməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Kənd Təsərrüfatı Nazirliyi<br><br>Elm və Təhsil Nazirliyi,<br><br>Fövqəladə Hallar Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 2026–2028 | Həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri fəsadlarından yaranan risklərin müəyyən olunması üzrə araşdırmanın aparılması | Həssas qruplardan olan qadınların iqlim dəyişmələri təsirlərinə uyğunlaşması mövzusunda dövlət orqanları (qurumları) əməkdaşlarının iştirakı ilə maarifləndirici tədbirlərin təşkili | Həssas qruplardan olan qadınlar üçün iqlim dəyişmələri nəticəsində yaranan riskləri nəzərdə tutan iqlim dəyişmələri üzrə adaptasiya planlarının və proqramlarının hazırlanması |
| 8.6.2. | İstilik effekti yaradan qaz tullantılarının azaldılması (su, ərzaq, heyvandarlıq, kənd təsərrüfatı, məişətdə enerjiyə qənaət və s.) və iqlim dəyişmələrinin digər aspektləri üzrə maarifləndirici tədbirlərə qadınların cəlb edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Energetika Nazirliyi<br><br>Kənd Təsərrüfatı Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi<br><br>“Azərenerji” ASC<br><br>SOCAR | 2026–2028 | İstilik effekti yaradan qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinin digər aspektləri üzrə bağlı maarifləndirici vəsaitlərin hazırlanması | İstilik effekti yaradan qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinin digər aspektlərini ehtiva edən fəaliyyətlər çərçivəsində həyata keçirilən maarifləndirici tədbirlərin sayının artırılması | İstilik effekti yaradan qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinin digər aspektlərini ehtiva edən fəaliyyətlər çərçivəsində həyata keçirilən maarifləndirici tədbirlərdə qadınların sayının artırılması |
| 8.6.3. | İqlim dəyişikliklərinin ətraf mühitə təsirlərinin azaldılmasında bərpa olunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi | Energetika Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | Müvafiq təşəbbüslərin qəbuluna başlanılması | Müvafiq təşəbbüslərin qiymətləndirilməsi | Müvafiq təşəbbüslərin həyata keçirilməsi üçün vəsait ayrılması |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | sahəsində qadınların ictimai təşəbbüslərinin dəstəklənməsi | | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | | | | |
| **8.7. Media sahəsində gender bərabərliyinin təşviqi** | | | | | | | |
| 8.7.1. | Media subyektlərində gender bərabərliyinin təşviqi | Medianın İnkişafı Agentliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Audiovizual Şura<br><br>Mətbuat Şurası | 2026–2028 | Media subyektlə-rində qadın və kişi təmsilçiliyi ilə bağlı vəziyyətin öyrənilməsi | Media subyektlərində gender bərabərliyinin təşviqi üzrə təlimlərin keçirilməsi | Keçirilmiş təlimlərin media subyektlərində gender bərabərliyi təmin olunmasına təsirlərinin öyrənilməsi |
| 8.7.2. | Media nümayəndələrinin gender məsələlərinə həssaslığının artırılması və müvafiq sahələrdə uğur qazanmış qadın obrazının təşviqi | Medianın İnkişafı Agentliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br><br>Audiovizual Şura<br><br>Mətbuat Şurası | 2026–2028 | Media nümayəndələri üçün gender həssaslığının artırılması üzrə təlimlərin keçirilməsi | Gender bərabərliyi ilə bağlı mesajlar verən media məhsullarının hazırlanması | Mediada gender bərabərliyi prinsipinə əməl edilməklə yayımlanan media məhsullarının sayının artması |
| 8.7.3. | Mediada yayımlanan gender bərabərliyi və gender əsaslı zorakılıq mövzusunda media məhsullarının monitorinqinin aparılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Medianın İnkişafı Agentliyi<br><br>Audiovizual Şura<br><br>Mətbuat Şurası<br><br>Tövsiyə edilir: İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Monitorinq planının hazırlanması | Gender bərabərliyi və gender əsaslı zorakılıq mövzusunda media məhsullarının monitorinqinin aparılması | Aparılmış monitorinq üzrə müvafiq hesabatın hazırlanması |
| **8.8. Gender bərabərliyinin təmin olunması vəziyyətinin təhlili və qiymətləndirilməsi** | | | | | | | |
| 8.8.1. | Ölkədə gender əsaslı zorakılığa dair sorğu aparılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Daxili İşlər Nazirliyi<br><br>Dövlət Statistika Komitəsi | 2026–2028 | Sorğu anketlərinin hazırlanması | Sorğunun keçirilməsi | Sorğunun nəticələrinin təhlili və |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | yekun hesabatın hazırlanması |
| 8.8.2. | İşğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların sosial-iqtisadi ehtiyaclarına dair keyfiyyət və kəmiyyət əsaslı tədqiqat aparılması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2028 | İşğaldan azad edilmiş ərazilərə köçürüləcək qadınların sosial-iqtisadi ehtiyaclarına dair keyfiyyət və kəmiyyət əsaslı tədqiqat planının hazırlanması | Tədqiqat planının icrası | Tədqiqat nəticələrinin təhlili, hesabatın və müvafiq təkliflərin hazırlanması |
| 8.8.3. | Özəl sektorda gender bərabərliyinin təmin edilməsi məqsədilə özəl müəssisələrin özlərinin daxili siyasət və prosedurlarının gender auditini aparmağa və bu sahədə fəaliyyətlərini gücləndirməyə təşviq edilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | İqtisadiyyat Nazirliyi | 2026 | Özəl müəssisələrdə gender auditinin aparılması üçün təlimatın hazırlanması | Gender auditinin aparılması ilə bağlı özəl sektor nümayəndələri ilə görüşlərin keçirilməsi | Ozəl müəssisələrdə daxili siyasət və prosedurlar üzrə aparılmış gender auditlərinin nəticələrinə dair tövsiyələrin hazırlanması və təqdim olunması |
| 8.8.4. | Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə mövcud mexanizmlərin səmərəliliyinin təhlili və təkliflərin hazırlanması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Tövsiyə edilir: İnsan hüquqları üzrə müvəkkil (ombudsman) | 2026–2028 | Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə mövcud mexanizmlərin səmərəliliyinə dair təhlil aparılması | Təhlil əsasında təkliflər hazırlanması | Hazırlanmış təkliflərin aidiyyəti üzrə təqdim olunması |
| 8.8.5. | Turizm sahəsində gender bərabərliyinə dair qiymətləndirmə aparılması | Dövlət Turizm Agentliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2026–2027 | Turizm sahəsində gender bərabərliyinə dair qiymətləndirmə hesabatının hazırlanması | Qiymətləndirmə hesabatının nəticələrinə dair turizm sahəsində fəaliyyət göstərən sahibkarların məlumatlandırılması və məsləhətləşmələr aparılması | Qiymətləndirmə hesabatından irəli gələn təkliflərin aidiyyəti üzrə təqdim olunması |